

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 173 (21.834)

14 sentyabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Beynəlxalq Valyuta Fondunun (BVF) Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azurun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzun illər davam edən əməkdaşlığı yüksək qiymətləndirən dövlətimizin başçısı ölkəmizin bu əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu deyib. Azərbaycanda dövlət idarəçiliyi sistemində həyata keçirilən islahatların önəmindən danışan Prezident İlham Əliyev biznes mühitinin və sərmayə qoyuluşunun asanlaşdırılması və daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin əhəmiyyətini qeyd edib.

BVF-nin Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azur Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatların Beynəlxalq Valyuta Fondu tərəfindən yüksək qiymətləndirildiyini deyib.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən tədbiri nazir Famil Seyidov açaraq məruzə edib.***

Bildirilib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə İqtisadiyyat Nazirliyinin qarşısında da bir sıra vəzifələr qoyulub. Bu məqsədlə muxtar respublikada daxili bazarın qorunması, kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması, soyuducu anbar və istixanalardan səmərəli istifadə etməklə əhalinin tələbatının tam ödənilməsinə nail olunması istiqamətində icra planı hazırlanıb.

Qeyd edilib ki, mövsümə hazırlıqla əlaqədar meyvə-tərəvəz məhsullarının tədarük olunması istiqamətində kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərlə birgə soyuducu anbarların və istixana komplekslərinin sahibkarları arasında maarifləndirmə işləri aparılıb, tələbatdan artıq istehsal olunan meyvə və tərəvəz məhsullarının anbarlara tədarük edilməsi məqsədilə kütləvi informasiya vasitələrində elanlar verilib, istehsalçı və tədarükçü sahibkarların fəaliyyətinin əlaqələndirilməsi təmin edilib.

İlk növbədə, anbarlarda cari təmir və avadanlıqlara texniki baxış aparılıb. Hazırda soyuducu anbarlar tərəfindən kartof və soğan 35-40, alma isə 70-80 qəpiyə tədarük edilir.

Dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına bu gün muxtar respublikamızda yanacaq və taxıl anbarları istisna olmaqla, soyuducu və digər təyinatlı ərzaq məhsullarının saxlanması üçün ümumi tutumu 18 min ton olan anbar yaradılıb.

Vurğulanıb ki, əhalinin qış aylarında tərəvəz məhsulları ilə təmin olunması mühüm məsələlərdən biridir. Bu sahəyə göstərilən diqqətin nəticəsində muxtar respublikada 127 min 162 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 21 istixana təsərrüfatı fəaliyyət göstərir.

Muxtar respublika ərazisində ötən müddət ərzində istixana komplekslərində 509 ton tərəvəz məhsulları istehsal edilərək satışı həyata keçirilib.

Daxili bazarda süni qiymət artımının və razılaşdırılmamış qiymətlərin tətbiqinin qarşısının alınması istiqamətində muxtar respublikanın şəhər, rayon və kəndlərində fəaliyyət göstərən ticarət obyektlərində mütəmadi olaraq monitorinqlər keçirilib, satışa çıxarılan məhsulların üzərinə qiymət yarlıqlarının vurulması təmin edilib, satışda olan əsas istehlak mallarının qiymətləri nəzərdə saxlanılıb.

Payız-qış mövsümünə hazırlıq məqsədilə dövlət müəssisə və təşkilatlarının keyfiyyətli ərzaq məhsulları ilə təminatı diqqət mərkəzində saxlanılıb. Hazırda "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin anbarlarında 65 min manat dəyərində ərzaq məhsulları mövcuddur.

Bundan əlavə, meyvə-tərəvəz istehsalçılarının fəaliyyətinin stimullaşdırılması məqsədilə cəmiyyət tərəfindən meyvə qurutma və cem istehsalı sahələrinin yaradılmasına başlanılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Tədbirə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov yekun vurub.

**Nail ƏSGƏROV**

## Müsabiqənin test imtahanları mərhələsi başlayıb



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Dövlət orqanlarında inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatı üzrə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 12 iyul 2017-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları mərhələsinə sentyabrın 11-də start verilmişdir.*

Müsabiqəyə çıxarılan vakant vəzifələrin tutulması üçün 49 dövlət orqanında 642 vakant vəzifə üzrə 744 namizəd sənəd təqdim etmişdir ki, bu da indiyədək keçirilən müsabiqələr tarixində ən yüksək göstəricidir. Namizədlərdən 8-i dördüncü, 29-u beşinci, 429-u altıncı və 278-i yeddinci təsnifat vakant vəzifələr üzrə qeydiyyatdan keçmişdir.

İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilmişdir. İmtahanda namizədlərə qanunvericilik üzrə 40, dünyagörüşü üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, 100 sual təqdim edilmiş, sualları cavablandırmaq üçün onlara 2 saat 30 dəqiqə vaxt verilmişdir. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılmışdır. Test imtahanı başa çatdıqdan dərhal sonra namizədlərə cavab kartı və imtahanın nəticəsinə dair arayış təqdim edilmişdir.

İmtahanlarda keçid balını toplamış namizədlərə sertifikat veriləcək və onlar müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar.

Nəticələr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilmişdir.

Test imtahanları 29 sentyabr 2017-ci il tarixədək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Dəmir yolu nəqliyyatında əhaliyə keyfiyyətli xidmət göstərilir



Muxtar respublikada dəmir yolu nəqliyyatından istifadə bu ilin avqust ayında da diqqət mərkəzində saxlanılmışdır. Ötən ay Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 6 min 555 ton müxtəlif təyinatlı yük, yüksərnişin qatarları vasitəsilə isə 12 min 490 sərnişin daşınmışdır. Avqust ayında Culfa İstismar Vaqon Deposunda 26 müxtəlifpitli vaqon cari təmir edilmişdir.

Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən 2017-ci ilin avqust ayında Ordubad dəmiryol sərnişin vağzalı, eləcə də Yol Sahəsinin inzibati binalarında və yolun 369-cu kilometrində yerləşən 4 saylı yol məntəqəsində aparılan yenidənqurma, Ordubad Yol Sahəsinin yardımçı binalarında, Ordubad İdarəetmə Mərkəzində, Aza və Naxçıvançay Təhlükəsizlik Komandalarının inzibati binalarında aparılan əsaslı təmir işləri, eləcə də Culfa stansiyasında müasir tələblərə cavab verən yeni İstismar Vaqon Deposunun tikintisi davam etdirilmişdir.

Həyata keçirilən ardıcıl tədbirlər növbəti aylarda da dəmir yolu nəqliyyatının nümunəvi xidmət göstərməsinə imkan verəcəkdir.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Muxtar respublika əhalisi müasir və dayanıqlı rabitə xidmətilə təmin olunub

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi avqust ayında da uğurla davam etdirilib.***

Mövcud avtomat telefon stansiyaların nömrə tutumlarının artırılması nəticəsində ötən ay 186 yeni telefon nömrəsi istismara verilib, 6380 metr fiber-optik kabel xəttinin tikintisi aparılıb. "Evədək optika" layihəsi çərçivəsində 2 fərdi mənzilə fiber-optik kabel xətti çəkilib. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən isə genişzolaqlı ADSL texnologiyası vasitəsilə 357 yeni abunəçi internetlə təmin olunub.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin 8 şəhər və rayon təhsil şöbələri və nazirliyə birbaşa tabe olan 4 təhsil müəssisəsinin İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə qoşulması üçün müvafiq şəbəkə qurulub və avadanlıqlar istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasının elektron hökumət portalında isə cari yenilənmə işləri aparılıb.

Rabitə və yeni texnologiyaların inkişafını təmin etmək məqsədilə görülən işlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti cari ilin avqust ayı ərzində miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, idarə edilməsi və tənzimlənməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində müvafiq tədbirləri davam etdirib.

Xidmətdən aldığımız məlumata görə, ötən ay Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 35 əcnəbi aşkarlanıb. Onlardan 29-u barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərketmə, 6-sı barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 1324 müraciət daxil olub. Bu müraciətlərdən 105-i əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı xidmət tərəfindən 1219 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərin 342-si xidmətin sərhəd-buraxılış məntəqələrində fəaliyyət göstərən bölmələri tərəfindən qəbul və icra edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikamızın rəqabətqabiliyyətli iqtisadi potensialı burada istehsal olunan yüksəkkeyfiyyətli məhsulların emalı, istehsalı və ixracı ilə xarakterizə olunur. Naxçıvanda kiçik və orta sahibkarlıq inkişaf etdikcə ixtisaslaşmış xeyli sayda emal və istehsal müəssisələri və bunların əsasında fəaliyyət göstərən çoxlu xidmət obyektləri də yaradılır. Həyata keçirilən irimiqyaslı layihələr, əsasən, daxili bazarın tələbatlarının ödənilməsi və daha çox ixracyönümlü istehsal sahələrinin genişləndirilməsi üzrə davam etdirilir.*

# Emal sənayesi daxili bazarın tələbatlarına cavab verir

Müasir dövrdə Naxçıvan Muxtar Respublikasında geniş emal sənayesi potensialı vardır. İqtisadiyyat Nazirliyinin son məlumatlarına əsasən hazırda Naxçıvanda 440-dan çox istehsal-emal müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə 371 növdə məhsul istehsal olunur və 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bütün bunlar işə salınan yeni müəssisələrə güzəştli kreditlərin verilməsi, müasir texnoloji avadanlıqların gətirilməsinə göstərilən dəstək, daxili bazarın qorunması yolu ilə yerli istehsalçıların işinin stimullaşdırılması sayəsində mümkün olub, regionda hər cür istehsal və emal fəaliyyəti ilə məşğul olmaq istəyənlərə geniş imkanlar açır. Nəticədə, bu gün muxtar respublika iqtisadiyyatının ümumi daxili məhsulunda sənaye ilk sıranı tutmaqdadır.

Keçilən yola nəzər saldıqda görürük ki, Naxçıvan Muxtar Respublikasında sənayenin bu həcmdə inkişaf etdirilməsi heç də asan olmamışdır. Özünün 90 ildən artıq muxtariyyət tarixində Naxçıvan sənayesinin inkişafı müxtəlif mərhələlərdən keçmiş, bir neçə yaddaqalan yüksəliş dövrləri olmuşdur. Belə ki, sovet hakimiyyəti dövründə dünyanın ən güclü dövlətlərindən birinin tərkib hissəsi olan Naxçıvanda 1965-ci ilədək cəmi 40 adda məhsul istehsalına nail olunmuş, bunların da əksər hissəsi mineral ehtiyatların hasilatı və yeyinti sənayesi hesabına mümkün olmuşdur. Həmin dövrdə Naxçıvanın iqtisadiyyatı aqrar çərçivədən kənara çıxa bilməmiş, ərzaq bitkiləri ilə yanaşı, sənaye əhəmiyyətli texniki bitkilərin əkinləri üstünlük təşkil etmişdir.

1969-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə bütün respublikada olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da iqtisadi-mədəni həyatında köklü dəyişikliklər baş verdi. Regionda sənaye məhsulunun artımı 1970-1985-ci illər arasındakı dövrdə dəfələrlə artmış, Azərbaycan Respublikası üzrə sənaye məhsulu istehsalında muxtar respublika sənayesinin xüsusi çəkisi 1970-ci ildəki 1,1 faiz səviyyədən 1985-ci ildə 2,3 faiz səviyyəsinə çatmışdı.

1987-1993-cü illər arası baş verən məlum hadisələrdən sonra diyarımızda da sənayenin inkişafının yeni mərhələsində Naxçıvanın sahib olduğu təbii sərvətlərin daha geniş şəkildə iqtisadi dövriyyəyə cəlb olunması, iqtisadi-əmək potensialından daha səmərəli istifadə edilməsi mərhələsi başlandı. Bu dövr, Naxçıvanın düşdüyü ağır blokada şəraitinin çətinliklərinə baxmayaraq, enerji, kommunikasiya, ərzaq



problemlərinin həll olunması ilə paralel şəkildə həm də gələcəkdə muxtar respublikanın iqtisadi təhlükəsizliyinə zəmin kimi güclü sənaye potensialının yaradılması istiqamətində atılan mühüm addımlarla yaddaqalan olmuşdu. Belə ki, muxtar respublikada hazırda avtomobildən tutmuş kiçik plastik məmulatlara qədər yüzlərlə növdə və çeşiddə yüksəkkeyfiyyətli məhsullar istehsal edən çox geniş imkanlara malik sənaye potensialı yaradılmasına nail olunub, 1995-ci illə müqayisədə muxtar respublikada sənaye məhsulunun həcmi 100 dəfədən çox artıb.

Hazırda yeni iqtisadi şəraitdə muxtar respublika iqtisadiyyatında çoxşaxəlilik təmin olunub. Bunun əldə edilməsində isə, şübhəsiz, sənayenin mühüm payı vardır. Belə ki, bu gün Naxçıvanda Günəş və hidroenerji ehtiyatlarından da istifadə olunmaqla elektrik enerjisindən tutmuş duz, mineral sular, daş məh-





sulları, müxtəlif növ mebellərədək, avtomobillərdən spirtli içkilərədək geniş çeşiddə məhsul istehsal edilir. Müasir texnologiyalardan istifadə ilə ənənəvi sahələrin yenidən dirçəldilməsi və yerli resurslardan daha səmərəli istifadə olunmasına diqqət artırıldıqca bu məhsulların sırasına yeniləri də əlavə edilir.

Bu gün muxtar respublikada həyata keçirilən bütün quruculuq işlərində əsas inşaat materialları olan sement və qum-çınqıl tamamilə yerli imkanlar hesabına ödənilir. Naxçıvanda istehsal olunan kərpic, travertin, mərmər, plastik məmulatlar da tikinti-quruculuq işlərində bütün daxili tələbatı ödəməklə regionun ixrac potensialının artırılmasında mühüm paya malikdir. Burada istehsal olunan mebellər daxili bazarı tam ödəməklə yanaşı, ölkəmizin digər yerlərində, habelə Türkiyə və Gürcüstanda da özünə alıcı tapmaqdadır.

Mineral sudoldurma, pivə və digər spirtli içkilər istehsalındakı güclü potensial daxili bazarın təmin olunması və hazır məhsulların ixracına da imkan verib. Təkcə qida sənayesi sahəsində əldə olunmuş nailiyyətlər muxtar respublikada emal sənayesinin inkişafı və ərzaq təhlükəsizliyinin təmini baxımından mühüm əhəmiyyət daşımaqla, həm də xammal kimi istifadə olunan yerli heyvandarlıq və bağbostan məhsullarının iqtisadi dövriyyəyə cəlb edilməsinə güclü təkan verib. Bu gün Naxçıvanda ət, balıq və süd məhsulları, broyler, yumurta, bal istehsalı sahəsində yüksək göstəricilər əldə olunub, tələbatdan artıq məhsullar ölkəmizin digər yerlərinə və xaricə ixrac edilməkdədir. Tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi bu sahələrdə fəaliyyət göstərən fermer təsərrüfatlarının və emal sənayesinin inkişafı hesabına mümkün olub. Bu gün süfrələrimizin bəzəyi olan Naxçıvan balı, duzu və lavaşı, şirniyyat və qənnadı məhsulları, meyvə şirələri, dondurma və limonadlar, Naxçıvana xas olan özünün yüksək keyfiyyəti ilə yerli əhali və muxtar respublikaya gələn qonaqlar tərəfindən çox bəyənilir.

Naxçıvanda istehsal olunan bu məhsulların əksəriyyəti muxtar respublikada daxili bazarın tələbatlarının ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bunların böyük bir hissəsi son 15-20 il ərzində yaradılmış müəssisələrin məhsullarıdır. Həmin məhsulların ümumi bir cəhəti isə yüksək texnologiyaların tətbiqi ilə müasir standartlar əsasında istehsal edilməsidir. Bu, təkcə Naxçıvan Muxtar Respublikasının deyil, həm də ölkəmizin iqtisadi gücünün göstəricisidir.

**Əli CABBAROV**

# Məşğulluq məsələlərinin həlli diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq olunması həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir. Həmin dövlət sənədinə uyğun olaraq Babək rayonunda da əhalinin məşğulluğunun təmin olunması diqqət mərkəzində saxlanılıb.***

Babək Rayon Məşğulluq Mərkəzindən aldığımız məlumata görə, cari ilin 6 ayı ərzində 206 işaxtaran vətəndaş qeydiyyata alınıb. Bu vətəndaşların 190-ı daimi işlə təmin olunub. Onların 55-i 18-29 yaşadək olan gənclərdir. Son olaraq avqust ayının 3-də keçirilən əmək yarmarkasında 20 işaxtaran vətəndaşa göndəriş verilib və onlar işlə təmin olunub, 32 vətəndaş isə müxtəlif peşə kurslarına göndərilib.

Qeyd edək ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzində müdavimlərin yaxşı təhsil almaları üçün əlverişli şərait yaradılıb. Burada təşkil olunan peşələrə uyğun ixtisaslaşdırılmış sinif otaqları vardır. Əmək bazarındakı tələbi nəzərə alaraq mərkəzdə bərbər, ofisiant, aşpaz köməkçisi, kabel ləhimləyicisi və elektrik montyoru, qazanxana maşinisti, dərzi və digər kurslar təşkil edilib.

Xəlilli kənd sakini Niyaməddin Allahverdiyev məhdud fiziki imkanlı şəxsdir. Təşkil olunan üçaylıq bərbər kursunda iştirak edib. Buranı müvəffəqiyyətlə bitirdikdən sonra doğma kəndindəki müasir xidmət mərkəzində yerləşən bərbər salonunda işə başlayıb. Atası Fəxrəddin kişi bizimlə söhbət zamanı bildirdi ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzinin siniflərindəki şərait, tədris avadanlıqları Niyaməddin üçün də geniş imkanlar açdı. Artıq övladım bir neçə vaxtdır kəndimizdə bərbər kimi çalışır. Sağ olsun dövlətimizi, bizə bu cür imkan yaradıb.

Rübabə Quliyeva da həmin kənddə gözəllik ustası kimi fəaliyyət göstərir. Deyir ki, son illər Naxçıvanda qadınların özünüməşğulluğunu təmin etmək üçün bir sıra sosial layihələr həyata keçirilib. Sosial qayğıya ehtiyacı olan şəxslərin əl işlərinin satışına köməklik göstərilir, onların məşğulluğu təmin olunur. Sevinirəm ki, mən də bu sosial layihədən kənarda qalmamışam və bu peşəyə yiyələnmişəm. Öz kəndimdə çalışır və başqa yerə getmək üçün əlavə xərc çəkmirəm. Şükür, qazancım da pis olmur.

Gülnar Süleymanlı isə bu ilin mart ayında dayə kursunu başa vurub və hazırda Babək qəsəbəsindəki uşaq bağçasında işləyir. Onun dediklərindən:

– Artıq 5 aydır ki, işlə təmin olunmuşam. İş yerim evimizə olduqca yaxın bir məsafədə yerləşir. Babək qəsəbəsindəki uşaq bağçasında yaradılan şərait isə uşaqların məktəbəqədərki təhsilinin və onların təlim-tərbiyəsinin düzgün təşkilinə imkan verir. Mən də bu şəraitdən bəhrələnərək gələcəyimiz olan bu uşaqların hərtərəfli formalaşmasına töhfə verməyə çalışıram.

Göründüyü kimi, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası işçi qüvvəsinə olan tələbatın stimullaşdırılmasına, səmərəli işgüzarlıq mühitinin formalaşmasına şərait yaradıb. Deməli, proqramın icra müddətində muxtar respublikamızda məşğul əhalinin sayı xeyli artacaq, əmək potensialının reallaşması prosesi geniş miqyas alacaq, insanların maddi rifah halı daha da yüksələcək.

**Lalə ALLAHVERDİYEVA**
*"Şərqin səhəri" qəzetinin əməkdaşı*

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Culfa rayonunun Əbrəqunus kəndində "Kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbiri Culfa Rayon İcra Hakimiyyətinin İqtisadiyyat şöbəsinin baş məsləhətçisi Zahir Xudiyev açaraq aparılan maarifləndirmə işinin əhəmiyyətindən danışıb.***

# Torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Tural Cəfərov torpaq üzərində mülkiyyətin növlərindən danışaraq torpaqların keyfiyyətinə görə 4 qrupa ayrıldığını bildirib. Həmçinin torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin bağlanma şərtləri tədbir iştirakçılarının nəzərinə çatdırılıb. Bütün bunlarla yanaşı, məruzəçi torpaq sahələri üzərində yaranan hüquqların dövlət qeydiyyatına alınmasının əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Gəlirlər şöbəsinin müdiri Əli Həsənov kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən mülkiyyətçilər tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər haqqında tədbir iştirakçılarına məlumat verib. Bildirilib ki, kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçiləri sosial sığorta haqlarının düzgün hesablanması və ödənilməsinə məsuliyyətlə yanaşmalıdırlar. Mülkiyyətçilər əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün torpaqların ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının (116 manat) 1-ci keyfiyyət qrupu üzrə 12 faizi, yəni 13,92 manat, 2-ci keyfiyyət qrupu üzrə 8 faizi, yəni 9,28 manat, 3-cü keyfiyyət qrupu üzrə 4 faizi, yəni 4,64 manat, 4-cü keyfiyyət qrupu üzrə isə 2 faizi, yəni 2,32 manat miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəməlidirlər.

Qeyd edilib ki, muxtar respublikada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi üsullar tətbiq edilməkdədir. Ödəyicilər məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsindən plastik bankomat kartları vasitəsilə, həm banklarda nağd qaydada onlayn ödənilməsi ilə, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilirlər.

Sonra fondun Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Rza Qarayev sığorta-pensiya sistemi ilə bağlı qanunvericiliyin pozulmasına görə nəzərdə tutulmuş inzibati tədbirlər, fondun Culfa Rayon Şöbəsinin müdiri Vüsal Məmmədzadə rayon şöbəsində sığorta-pensiya sahəsində görülmüş işlər, fondun Culfa Rayon Şöbəsinin Pensiyaların təyinatı sektorunun müdiri Şahin Allahverdiyev isə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklər, torpaq mülkiyyətçilərinin fondun fərdi uçot sistemində qeydiyyata alınması və bu sahədə elektron xidmətlərin tətbiqi barədə tədbir iştirakçılarına məlumat veriblər.

Tədbirin sonunda yeni əmək fəaliyyətinə başlayan sığortaolunanlara sosial sığorta şəhadətnamələri təqdim edilib, torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti*

## Yeni yaradılacaq Naxçıvan Duz Muzeyi unikal məkanlardan birinə çevriləcək

***Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mühüm əhəmiyyəti ilə seçilən “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” Sərəncam imzalandı. Sərəncamın mətnində Naxçıvanda belə bir muzeyin yaradılması zərurətini şərtləndirən amillər ardıcıllıqla sadalanır, eyni zamanda duz mədənçiliyi ilə bağlı faktların tarixiliyi önə çəkilir. Belə bir mühüm dövlət sənədinin imzalanması həm də digər maraqlı tərəfləri ilə diqqət çəkir.***

Əvvəlcə onu qeyd edək ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan müasir Naxçıvan Muxtar Respublikasının ərazisi Şərqin ən qədim tarixə və mədəniyyətə malik bölgələrindəndir. Yunan alimi Klavdi Ptolomeyin bizim eranın ikinci əsrində tarixdə ilk dəfə olaraq Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırlatması diyarın zəngin tarixi mədəniyyətinə Şərq kontekstindən əlavə, həm də dünya tarixinin mədəni prizmasından baxmağa əsas yaradır. Sonrakı dövrlərdə dünyanın fərqli ölkələrindən bura səfər etmiş səyyah və coğrafiyaşünasların xatirələrində də Naxçıvanın Nuhla bağlılığı diqqətə çatdırılır. Bu isə bəşəriyyətin ikinci yaranışının Naxçıvanla birbaşa əlaqəli olması faktını ortaya qoyur.

Faktın mükəmməlliyi ondadır ki, Naxçıvanla bağlı bütün yazılı mənbələrdə və səyyahların xatirələrində bu qədim diyarın adı hər hansı bir bölgə və ya ərazi kimi məchul deyil, bəzi fonetik dəyişikliklər istisna edilməklə, olduğu kimi yazılmasıdır. Yəni sözün kökündə Nuhla bağlılıq inkarolunmazdır. Sərəncamda adıçəkilən rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunmuş “Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi”ndə verilən “Naxçıvan mahalı və Naxçıvan şəhəri” adlı irihəcmli məqaləsində Nuh Peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olmasının, şəhər əhalisinə duz çıxartmağı öyrətməsinin qeyd edilməsi isə Naxçıvanda duz mədənçiliyinin minilliklərlə yaşı olduğunu üzə çıxarır. Elə Naxçıvanla bağlı son illərdə aparılmış tədqiqatlarda, nəşr olunmuş elmi mənbələrdə gəlinən ortaq fikir də bundan ibarətdir ki, buradakı şəhər mədəniyyətinin əsasını duzçıxarma, duz mədənçiliyi təşkil edib.

Eneolit dövrünə gedib çıxan bu mədəniyyətin izi, eləcə də arxeoloji tədqiqatlar zamanı ərazidən tapılmış müxtəlif məmulatlar isə belə bir məsuliyyətli fikri səsləndirməyə imkan verir ki, bəşər tarixində duzdan qida elementi kimi ilk dəfə burada istifadə olunub. Bu faktın dəqiqliyini gücləndirən amil də bəşəriyyətin ikinci dəfə yaranışının və təbii ki, duzla tanışlığın Naxçıvandan başlanmasıdır. Buradan isə belə nəticəyə gəlmək mümkündür ki, Duzdağ Naxçıvanın qədim tarixi və mədəni potensialını özündə cəmləşdirən əvəzsiz məkandır.

Məsələnin digər maraqlı tərəfi bundan ibarətdir ki, son illərdə muxtar respublikaya gələn yerli və xarici turistlərin ən çox ziyarət etdiyi ünvanlardan biri Duzdağdır. Hətta muxtar respublikaya müalicə səbəbi olmadan belə, yolu düşənlərin əksəriyyəti Duzdağ mağaralarını görmək istəyir. Çünki analoji obyektə fərqli istisnalar olsa belə, dünyanın heç bir yerində rast gəlmək mümkün deyil. Hazırda mağaraların daxil olduğu Fizioterapiya Mərkəzi isə Duzdağın tarixi əhəmiyyətini, Duzdağ mədəniyyətini turistlərə incəliklərinə qədər çatdırmaqda yetərli deyil. Çünki buradakı təqdimat ən çox müalicəvi baxımından qənaətbəxş sayıla bilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə yaradılacaq Naxçıvan Duz Muzeyi isə belə əsrarəngiz bir abidənin dünyada tanıdılmasında əhəmiyyətli rol oynayacaq. Muzeydə Naxçıvanın duz mədəniyyəti ilə bağlı tarixi mənbələrdəki faktları, qədim dövrlərdən müasir günümüzədək duzun çıxarılması texnologiyasını, əsrlər boyu müxtəlif nəqliyyat vasitələri ilə digər ölkələrə daşınmasını, həmçinin buradakı duz yataqlarının yayılma coğrafiyasını, potensial ehtiyatını, duzun tərkibi və kimyəvi xüsusiyyətlərini əhatə edən məlumat stendlərinin təqdimatı, duzdan hazırlanmış suvenirlərin satışının təşkili turizm marketinqi baxımından əvəzolunmaz imkanlar ortaya qoyur. Eyni zamanda bu cür imkanlar muxtar respublikaya turist axınını daha da gücləndirəcək.

Hazırkı dövrdə bir bölgənin təqdimat və tanıtım metodu kimi muzeylər müstəsna əhəmiyyətə malikdir. Əvvəlki yazılarımızda da bu fikri bir neçə dəfə xatırlatmışıq ki, Naxçıvanın tarixi abidələri, təbiəti, faydalı qazıntıları bizim rasional dəyərlərimizdir. Bu dəyərlər isə turizmin bütün kütlələrinə xitab etmək gücündə olmur. Müasir marketinq belə dəyərləri emosional dəyərlərə çevirmək üzərində qurulur. Yəni obyektə baxdıqda emosiya, həyəcan, maraq ön plana keçsin. Dolayısı ilə turistlərin düşüncəsi ilə obyekt arasındakı assosiasiya tamamlanmış olsun. Məhz buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Duz Muzeyinin yaradılması haqqında Sərəncamı Naxçıvanın təbliği baxımından böyük əhəmiyyətə malikdir. İnanırıq ki, belə bir muzeyin yaradılması onu nəinki Cənubi Qafqazda, ümumilikdə, postsovet məkanında unikal ünvanlardan birinə çevirəcək.

✍ Səbuhi HƏSƏNOV

*Təhsil millətin gələcəyidir*

## Uğura gedən yol zəhmətdən keçir

***Muxtar respublikamızda başqa sahələrlə yanaşı, təhsilin inkişafı da göz qabağındadır. Nailiyyətlərin təməlində isə təhsilə göstərilən dövlət qayğısı, təhsil ocaqları üçün yeni binaların inşa olunması, məktəblərimizin maddi-texniki bazasının gücləndirilməsi, bu işdə böyük fədakarlıq göstərən müəllimlərimizin əməyinin layiqincə qiymətləndirilməsi dayanır. Təhsil ocaqlarının göstəriciləri ölkə miqyasında seçilməkdə, ali məktəblərə qəbulun səviyyəsi ilbəil artmaqdadır. Bu il də ali məktəblərə qəbul imtahanlarında abituriyentlər uğurlu nəticələr əldə ediblər. Muxtar respublikada 2016-2017-ci tədris ilində məktəbi yüksək nəticələrlə başa vuran 15 məzun “Qızıl”, 6 məzun “Gümüş” medala, 113 məzun isə fərqlənmə attestatına layiq görülüb. Qəbul imtahanlarında həmin məzunlar onlara göstərilən etimadı doğruldaraq 500-700 arası bal toplayıblar. Ordubad rayonunun tam orta məktəblərinin məzunları arasında da belə gənclərimizin sayı az deyil. Təhsildə nümunəviliyi ilə seçilərək tələbə adını qazanmış gənclərlə görüşüb həmsöhbət olduq.***



***Xəlilova Zeynəb Mirzə qızı:*** – Ordubad rayon Kələki kənd tam orta məktəbinin məzunuyam. İxtisas qrupu seçimlərindən sonra bütün sınaq imtahanlarında 500 baldan yuxarı nəticə göstərmişəm. Keçirilən fənn olimpiadalarında müxtəlif uğurlar əldə etmişəm. 2015-ci ildə Azərbaycan Respublikası üzrə fənn olimpiadasında tarix fənni üzrə ikinci yeri tutaraq “Gümüş” medalla təltif olunmuşam. Məktəb illərindən hüquqşünas olmaq ən böyük arzum idi. Bunun üçün gecəmi gündüzümə qataraq çalışdım. Və nəhayət, həmin gün gəldi. Həyəcanla nəticələri gözləyirdim. Göstəricimin 683 bal olduğunu biləndə sevincimin həddi-hüdudu yox idi. Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq ixtisasını seçdim. Qarşıma qoyduğum birinci məqsədimə çatdım, indi isə üzərimə daha məsul vəzifələr düşüb: təhsil alacağım illər ərzində səylə çalışmaq, ixtisasımı mükəmməl öyrənmək, gələcəkdə yaxşı hüquqşünas olaraq vətəndaşlarımızın hüquqlarını ədalətli şəkildə qorumaq. Çalışacağam ki, mənə göstərilən etimadı doğrulda bilim.



***İsmayılova Aynur Cabir qızı:*** – Ordubad şəhər M.T.Sidqi adına 1 nömrəli tam orta məktəbin məzunuyam. Orta məktəbdə dərslərimi əla qiymətlərlə oxuyurdum. 641 balla Naxçıvan Dövlət Universitetinin İngilis dili ixtisasına qəbul olmuşam. Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-2017-ci tədris ilində ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplamış tələbələrlə görüşü həyatımın ən unudulmaz günlərindən biri oldu. Görüşdə Ali Məclis Sədrinin dediyi bu sözlər yaddaşımdan silinməyəcək: ***“...Seçdiyiniz ixtisas üzrə yaxşı bilik almaq, peşə öyrənmək, ölkə və xalq üçün faydalı olmaq qarşınızda əsas fəaliyyət istiqaməti kimi dayanmalıdır. Ali təhsil almaqla və peşə öyrənməklə yanaşı, xalqımızın adət-ənənələrinə, milli dəyərlərinə, eləcə də ümumbəşəri dəyərlərə dərindən yiyələnməlisiniz. Bizim təhsilimizin məqsədi həm də yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər yetişdirməkdir. Unutmayın ki, Azərbaycanın gələcəyi sizə etibar olunacaqdır. Ölkəmizin rifahı üçün çalışmalı, müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməli, daim azərbaycanlı olmağınızla fəxr etməlisiniz”.***

Gələcək təhsilim üçün Naxçıvan Dövlət Universitetini seçdim. Muxtar respublikada təhsilə yaradılan şəraitin nəticəsidir ki, mən və mənim kimi onlarla məzun 500-dən yuxarı bal toplayaraq yüksək nəticə göstərib. Ali təhsil ocağında da tələbələr üçün hər cür şərait var. Orada oxuyan tələbələr də bundan razılıq edirlər. Mən də çalışacağam ki, orta məktəbdə olduğu kimi, universitetdə də fərqlənən tələbələrdən olum, mənə göstərilən etimadı doğruldum.



***Məmmədli Asya Elşən qızı:*** – Ordubad şəhər 1 nömrəli tam orta məktəbin məzunuyam. Əgər tələbə adını qazanmaq, gələcəkdə öz xalqına və dövlətinə layiq vətəndaş kimi yetişmək istəyirsənsə, təbii ki, çox oxuyub, çox öyrənməlisən. Uşaqlıqdan həkimlik sənətinə böyük həvəsim olub. Ona görə var gücümlə çalışmağa qərar verdim. Ali məktəblərə qəbul imtahanında 632 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul oldum. Nəticələr bəlli olan günü ailəmizin sevincinin həddi-hüdudu yox idi. Bu, mənim üçün həyatda ən böyük uğurlardan biridir. Arzusunda olduğum həkimlik peşəsinə yiyələnəcəyəm. Düşünürəm ki, seçdiyim ixtisas çox məsuliyyətlidir.

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada yüksək bal toplamış tələbələrlə görüşündə biz gənclərə üzünü tutaraq dedi ki, cəmiyyətdə layiqli yer tutmaq, vətənə və millətə faydalı olmaq üçün bundan sonra da yaxşı təhsil almalı, öz üzərinizdə daim işləməli, mütaliə etməli, bilik və dünyagörüşünüzü artırmalısınız. Hər bir gənc mütəxəssis hansı ixtisas üzrə təhsil almasından asılı olmayaraq, birinci növbədə, Azərbaycan dilini və tarixini öyrənməli, milli dəyərləri, azərbaycanlılara məxsus adət-ənənələri dərindən mənimsəməlidir. Bu sözləri həmişə yaddaşımda saxlayaraq hərtərəfli biliyə malik bir gənc kimi təhsilimi başa vurmağa çalışacağam. Onu da dərk edirəm ki, yaxşı həkim olmaq üçün çox çalışmalıyam. İnanıram ki, təhsilimi uğurla başa vuracaq, savadlı həkim kimi insanların sağlamlığı keşiyində dayanacağam.



***Nəcəfli Əli Müşviq oğlu:*** – Dırnıs kənd tam orta məktəbinin məzunuyam. Təhsil müddətində respublika fənn olimpiadalarında məktəbi layiqincə təmsil etmişəm. Bu il keçirilən muxtar respublika üzrə fizika olimpiadasının qalibi olmuşam. Məktəbi fərqlənmə attestatı ilə bitirmişəm. Qarşıma məqsəd qoymuşdum ki, qəbul imtahanında da yüksək bal toplayım. Valideynlərim, müəllimlərim mənə inanırdı. Sevinirəm ki, bu inamı doğrulda bildim. Uğur qazanmağımın başlıca səbəblərindən biri muxtar respublikada təhsilə göstərilən qayğıdır. Hər ay sınaq imtahanlarında iştirak edirdim. Ali məktəblərə qəbul imtahanında 623 bal toplayaraq Azərbaycan Mühəndislik Universitetinin İnformasiya texnologiyaları ixtisasına qəbul oldum. Əsas yolu qət etməmişəm. Yüksək səviyyəli kadr kimi yetişməyimiz üçün ölkəmizdə gənclərə hər cür şərait yaradılıb.

Məsuliyyətli illər isə qarşıdadır. Çətin yola qədəm qoyuruq. Ali təhsilimi də uğurla başa vurmaq istəyirəm. Düşünürəm ki, seçdiyim peşəyə yiyələnmək üçün bundan sonra da var gücümlə çalışmalı, biliklərə mükəmməl və dərindən yiyələnməliyəm.

✍ Fatma BABAYEVA

*Xəbər verdiyimiz kimi, avqust ayının 25-dən etibarən Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi bazarda və muxtar respublikamızın rayon mərkəzlərində məktəbli yarmarkaları təşkil olunub.*

## Valideynlər məktəbli yarmarkasının təşkilindən razılıq edirlər



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə hər il keçirilən məktəbli yarmarkaları artıq ənənəvi hal alıb. Belə yarmarkalar yeni tədris ili ərəfəsində şagirdlərin məktəbli geyimlərinə və dərs ləvazimatlarına olan tələbatlarının daha asan şəkildə təmin edilməsində mühüm rol oynayır. Həm qiymətlərin ucuzlaşmasına, həm də süni qiymət artımına nəzarətin gücləndirilməsinə səbəb olan yarmarkalar övladlarını məktəbə yola salmağa hazırlaşan valideynlərin işini xeyli asanlaşdırıb. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır. Yarmarkada olarkən söhbətləşdiyimiz valideynlər yaradılmış şəraitdən razılıq etdilər.

Zöhrab Ağayev: – Hər bir valideyn çalışır ki, yeni tədris ilində övladına yeni məktəbli forması, dərs ləvazimatları alsın. Əvvəllər satıcılar alıcılara yüksək qiymətlərlə məhsullar təklif edirdilər. Düşünürdülər ki, valideynlər nə olursa-olsun, həmin ləvazimatları almağa məcburdur. İndi isə təşkil edilən belə yarmarkalar həm süni qiymət artımının, həm də məktəb ləvazimatlarının qanunsuz küçə satışının qarşısını alıb. Bu isə həm xərclərin optimallaşdırılması, həm də daha keyfiyyətli ləvazimatlar əldə etmək baxımından əhəmiyyətlidir.

Digər müsahibimiz Leyla Əhmədova süni qiymət artımının qarşısının alınması məqsədilə keçirilən yarmarkaların təşkilindən razılıq etdi. O bildirdi ki, yarmarkadakı qiymətlər bazar qiymətlərindən xeyli aşağıdır. Həm də çeşid bolluğu olduğundan seçim rahatdır.

Həvva Quliyeva isə bu il birinci sinfə qədəm qoyacaq nəvəsi üçün yarmarkaya gəldiyini bildirdi. Onun dediklərindən: “Bir zamanlar bütün sahələrdə olduğu kimi, təhsilimizdə də vəziyyət acınacaqlı idi. Lazım olan dərsliklərin tapılmaması, yaxud onların bazarlarda çox baha qiymətə satılması adi hala çevrilmişdi. Artıq o günlər xeyli geridə qalıb. Bu mənada, indi orta məktəblərdə təhsil alan şagirdlərə qibtə ilə baxmaq olar. Onlar üçün məktəbli yarmarkasında nə istəsən var. Mən də nəvəm üçün yarmarkadan lazımi ləvazimatları aldım. Bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm”.

Qeyd edək ki, yarmarkada təkcə şagirdlər üçün deyil, müəllimlər üçün də müəyyən ləvazimatlar satışa çıxarılıb. İbtidai sinif müəllimi Xanım Əhmədova deyir ki, hər il zəruri ləvazimatları bu yarmarkadan alır. Müsahibimiz yaradılmış şəraitdən müəllim həmkarlarının da çox razı qaldığını bildirdi.

Məktəbli yarmarkasının təşkili, buradakı qiymətlərin münasibliyi haqqında görüşüb söhbət etdiyimiz hər kəs ürəkdolusu danışdı.

Qeyd edək ki, məktəbli yarmarkası sentyabrın 15-dək davam edəcək.

✍ Gülcamal TAHİROVA

Naxçıvan televiziyasının videoarxivində diqqətimi 25 il əvvəl şəhərin Təbriz küçəsində lentə alınmış kadrlar cəlb edir. Ətrafdakı hər kəs ürəkağrısı və hiddətlə deyilən sözlərə diqqət kəsilib:

*"Cinayət edirsiz, vallah, cinayət edirsiz! Tarix sizi bağışlamayacaq. Bax, o abidəni tikənlərə (əli ilə Zaviyə-mədrəsə binasını göstərir) min il sonra da rəhmət oxuyacaqlar. Siz isə qırıb-dağıdır, məhv edirsiniz".*

Bu, ulu öndər Heydər Əliyevin "Təbriz" otelinin qarşısındakı ağacları kəsib doğrayanlara qarşı ciddi etirazı, böyük mənəvi qınağı idi. O zaman ümummilli lider Moskvadan Naxçıvana yenicə gəlmişdi. Sadə həyat sürür və hələ heç bir siyasi vəzifə daşımırdı...

*Jurnalistin qeydləri*

# Yaratmaq amalı



### Gəmi batmağa başlayanda onu birinci siçanlar tərk edir... Əsl kapitanlar isə gəmini buraxmır, onu bütün təlatümlərdən xilas edib sahilə çıxarırlar

Bu, həmin Naxçıvan idi. Ötən əsrin 90-cı illərində batan gəmini xatırladan Naxçıvan. Ağır blokada, işğal təhlükəsi, çörək və enerji imtahanları sanki hər şeyi donduraraq iflic etmişdi. Hər şeyə rəğmən ürəklər azadlıq, müstəqillik eşqi ilə alovlanırdı.

Həmin vaxt hamı bir daha dahi rəhbər Heydər Əliyevin ətrafında sıx birləşərək işğal və məhvdən xilas olan Naxçıvan əhalisinin cəsarətinin, qətiyyətinin, yurd və Vətən sevgisinin, üçrəngli bayrağı yenidən dalğalandırmaq əzminin şahidinə çevrildi, bunu əyani şəkildə gördü. Görmək demişkən, o zaman Naxçıvan gəmisini "buranın gələcəyi yoxdur", – deyib tərk edənləri də az görmədik. Həmin adamların bir qismi sonradan Naxçıvanda aparılan uğurlu islahatlara ağız büzən, "pultu" başqalarının əlində olan sayt və qəzet redaktorları, sifarişli müxbirlər qiyafəsində zühur etdilər. Elə indi olduğu kimi, o vaxt da bu diyar barədə böhtan yazanlar, antitəbliğat aparanlar tez-tez gözə dəyirdilər. Onların dəyirmanına su tökən "Qara qutular" isə arabərədə var-gəl edirdilər...

Amma ulu öndər Heydər Əliyev istiqaməti düz müəyyənləşdirmiş, gediləcək yolu böyük ustalıq və dəqiqliklə seçmişdi. Bu yol yeganə və alternativi olmayan ən düzgün yol idi. Ona görə də bu yol Naxçıvanı da, Azərbaycanı da xoş günlərə gətirib çıxaracaqdı. Milli liderin Vətənimizin gələcəyi və inkişafı naminə ən müdrik qərarlarından biri də, heç şübhəsiz, Naxçıvanın gələcəyini, inkişaf və çiçəklənməsini özünün dövlətçilik məktəbində yetişərək formalaşan hörmətli Vasif Talıbovda görməsi oldu.

### Bəzən elə danışacaqsan ki, hamı susacaq... Bəzən elə susacaqsan ki, heç kim danışmağa cəsarət etməyəcək

Bu, həmişə belə olub. Kimi danışıb, kimi qulaq asıb, kimi isə "Allahdan buyruq, ağzıma quyruq", – deyib. Amma həmişə bu mübarizədə real, konkret iş görənlər, özünü xalqı və Vətəninə fəda edənlər qazanıb. Obrazlı desək, axşamdan oduna gedənlər hər zaman çox olub. Amma sübh tezdən çox az adam meşəyə yollanıb.

Budur, ötən 20-25 ildə Naxçıvanda keçilən yol hamımızın həyatını işıqlandırır. Müasirləşən kənd və şəhərlər, enerji və ərzaq təhlükəsizliyi, yeni yollar, məktəblər, elm mərkəzləri, səhiyyə və sağlamlıq şəbəkələri, informasiya-kommunikasiya texnologiyaları, bilikli və vətənpərvər gənclik bizim sərvətimizə çevrildi. Yüzlərlə tarixi abidəyə ikinci həyat verildi, milli-mədəni dəyərlərimiz özümüzə qaytarıldı. Qısası, Naxçıvanda bir gün, bir saat belə, boşa verilmədi. Narahat gecələr, əzab-əziyyətli gündüzlər bu qədim diyarı dünyanın bəzəyinə çevirdi.

Uzağa getmirəm, gəlin, son iki həftədə Naxçıvanda Ali Məclis Sədrinin iştirakı ilə baş verənlərə qısa nəzər salaq:

1. Ali Məclisin Sədri "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam imzaladı
2. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yeni binası istifadəyə verildi
3. Payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirildi
4. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Kəşfiyyat və Axtarış İdarəsi üçün yeni kompleksin açılışı oldu
5. 2 meqavatlıq Günəş Elektrik Stansiyası fəaliyyətə başladı
6. "İstedad – XXI əsr" hazırlıq kursları üçün yeni tədris binası açıldı
7. "Naxçıvan Avtoservis" yenidənqurmadan sonra fəaliyyətə başladı
8. Ali Məclisin Sədri "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" Sərəncam imzaladı.

Fikrimcə, əlavə və geniş şərhə ehtiyac yoxdu. Amma bir-iki məqama toxunmadan keçmək olmaz.

*Birinci məqam:*

"Oxunması zəruri olan kitablar haqqında" Sərəncam nəinki ölkə, hətta dünya miqyasında böyük təqdir və maraqla qarşılandı. Yekdil fikir bu idi: Bu sərəncam Ali Məclis Sədrinin kitaba yenidən qayıdışla bağlı çağırışıdır.

Sərəncamın məğzi budur ki, gənclərin vətənpərvər, milli ruhlu, geniş dünyagörüşlü yetişdirilməsində mühüm vasitə olan 30 kitabın oxunması onlara tövsiyə olunub və aid orqanlara bununla bağlı tapşırıqlar verilib. Üstəlik, tövsiyə olunan əsərlər Azərbaycan və dünya ədəbiyyatının ən dəyərli nümunələridir.

Bəli, öyrənməkdən, oxumaqdan gözəl nə ola bilər ki?! Bu, əslində, Peyğəmbərimizin "Beşikdən qəbir evinə kimi oxuyun" kəlamı ilə səsləşən mütərəqqi bir addımdır. Amma baxın, yuxarıda barələrində qısa bəhs etdiyim antinaxçıvan şəbəkəsi bu cür əhəmiyyətli bir addıma özünün "sarı" qəzet və saytlarında don geyindirməyə çalışdı. Təriflənəsi bir şeyi olmayanda öz bədbəxtliyi ilə öyünənlər kimi, sərəncamın məğzin, mahiyyətin anlamadan ağızlarına nə gəldi yazıb-pozdular. Hətta bunu oxuculara təzyiq (!) kimi qələmə verənlər də oldu. Əslində, belələrinə obyektivlik, qərəzsizlik, jurnalist etikası və düşüncəsi aşılamağın yetkinlik yaşına çatan erkək pişiyə ədəb-ərkan öyrətməkdən daha çətin olduğunu bilirəm. Ona görə də nəsə yazıb cavab vermədim, hadisələrin gedişatını gözlədim. Çünki Balzak da vaxtilə yazırdı ki, "İnsan öz əqidəsini elan kimi divardan asmamalıdır". Yəni hər kəsin əqidəsi, əslində, onun layiqli əməli, işi ilə uzlaşmalıdı. Lakin bunlar öz əqidəsizliklərini bütün aləmə elə car çəkdilər ki, nəticədə, ictimaiyyət də layiq olduqları "qiyməti" verdi, paylarını alıb oturdular. Ölkə mediasında isə kəsərli söz sahibi olan həmkarlarımız susmadılar:

**Murad Köhnəqala:** *"Əla! Çox sevindim. Muxtar respublikanın rəhbəri yaxşı bilir ki, bizi işıqlı yerlərə zorla itələmək lazımdı. Yoxsa özbaşına buraxsan, saqqal buraxıb şalvar gödəltməkdən, qadınları qara çadraya bürüməkdən, min ilin ölüsü üçün baş yarmaqdan, yaxud çayxanalarda domino oynamaqdan başqa bir şey eləməyəcəyik. Ancaq hörmətli Vasif müəllimin təklif elədiyi kitablardan oxuyan əhalinin mütaliəyə alışaraq başqa kitablar da axtaracaqlarına əminəm. Eşq olsun ona!.."*

**Aqşin Evrən:** *"Əvvəlcə onu deyim ki, Vasif Talıbovun bu gözəl addımını xüsusi təqdir və sevinclə qarşılayıram. Onun bu addımı daim mahiyyətsiz açıqlamaları, addımları ilə gündəmə gələn bəzi millət vəkillərinə, siyasilərə dərs olsun. Ümumiyyətlə, universitetlərdə də bu məcburiyyət tətbiq olunmalıdır. Çünki mütaliəli cəmiyyət cinayətdən, vəhşilikdən uzaq olur və ailəsinə, ölkəsinə, dünyaya faydalı fərd kimi yetişir.*

*Siyahı məsələsinə gəldikdə isə burada çox möhtəşəm əsərlər var. Xüsusən Azərbaycan və dünya ədəbiyyatının şedevrlərini siyahıda görmək məndə bu əsərləri yenidən oxumağa həvəs yaratdı. Son illər ədəbiyyat adına atılmış ən gözəl addımlardan biridir. Əslində, bu cür qərarların verilməsi təbiidir, ancaq nadir hallarda gördüyümüz üçün bizdə "mifik olay" təsiri yaradır. Naxçıvandakı gəncliyi təbrik edərək, Vasif Talıbova minnətdarlığımı bildirirəm".*

Hansı ki elə, təxminən, bu fikirləri yüz il əvvəl Mirzə Cəlil də deyirdi: *"Biz ağıllı söz eşitməyib it boğuşdurmağa, xoruz döyüşdürməyə, fal açdırmağa, min cür mənasız iş dalınca gedirik".*

### Dörd saatdan bir...

*İkinci məqam:*

*– Ana, işıqlar bir də nə vaxt yanacaq?!*

*– Sən yat, işıq yananda gec olacaq. Dörd saatdan sonra yanar bir də...Üstünə də iki yorğan ört. Gecə soyuq olar, xəstələnərsən...*

Bu, ötən əsrin 90-cı illərində biz gənclərin (o vaxtın uşaqlarının) ata-anamızla tez-tez olan dialoqlarından biri idi. O vaxt Naxçıvanda enerji böhranı var idi və işıqlarımızın 4-6 saatdan bir yanması bizi təəccübləndirirdi. Belə desək, adiləşmişdi. Bu gün isə bizi işıqlarımızın bir dəqiqə sönməyi təəccübləndirir. Çünki Naxçıvanda son illərdə 10-a yaxın elektrik stansiyası işə düşüb. Ötən həftə isə, az əvvəl dediyimiz kimi, 2 meqavatlıq daha bir Günəş Elektrik Stansiyası fəaliyyətə başladı. Hazırda isə ölkə Prezidenti cənab İlham Əliyevin təməlini atdığı Ordubad Su Elektrik Stansiyasının tikintisi aparılır. Naxçıvan bu gün alternativ və bərpa olunan enerji vasitələrindən – su, Günəş enerjisindən istifadəyə görə dünyada ön mövqeyə yüksəlib. Bu gün muxtar respublikada istehsal edilən enerjinin 60 faizdən çoxu alternativ və bərpa edilən enerji vasitələrinin payına düşür ki, bu, dünyada nadir hadisələrdəndir. Tanrının bu müqəddəs torpağa verdiyi sərvət insanların rahat yaşayışına, doğma diyarın inkişafına sərf olunur.

### Tarixi yaşadanlar tarixdə yaşayırlar

*Üçüncü məqam:*

Tarix çox hökmdarlar, liderlər yola salıb. Amma onların heç də hər biri günümüzdə yaşamır və sevilmir. Yalnız tikənlər, quranlar, xalqı, vətəni üçün yaradanlar əbədiyaşarlıq qazanırlar. Bu mənada, ötən bu illər Naxçıvanın həm də yeni dövrdəki quruculuq tarixinə çevrildi. Qədim abidələrə ikinci həyat verilməklə bərabər, müasir dövrün də yüzlərlə, minlərlə abidəsi tikilib-quruldu. Tariximizi və mədəniyyətimizi yaşadıb təbliğ edən onlarla muzey yaradıldı. Ali Məclis Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı ilə yaradılacaq Naxçıvan Duz Muzeyi xüsusilə təqdirəlayiq və milli düşüncənin məhsulu olan bir addımdır. Çünki Naxçıvanın tarixi həm də Duzdağdan başlayır. Duzdağda ulu əcdadlarımızın ruhu, səsi və nəfəsi duyulur. Naxçıvan şəhər mədəniyyətinin təşəkkülü və inkişafı Duzdağla bağlıdır. Naxçıvan duzu həm tarixdi, həm mədəniyyətdi, həm sənayedi, həm sağlamlıqdı, həm brenddi, həm də təbii vizit kartıdı – Naxçıvanın simvoludu. Kifayət qədər aydın, izahlı və tutarlı faktlara söykənən Sərəncamda deyildiyi kimi: *"Bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 minillik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir".*

### "Ömrün Duz dağına dönsün"

Zaman heç vaxt lövbər salmayan gəmidir. O, daim irəli gedir. Bu gəminin əbədi yolçuları isə dünənin qədrini bilən, bu günü itirməyən, sabahı düşünən və yaradanlardır.

Təbii ki, bu yazı çərçivəsində müəyyən məqamlarına toxunduğumuz işlər öz-özünə baş verməyib. Zamanla, zərrə-zərrə qurulub, yaradılıb və daim yaratmaq amalına söykənib.

Bəli, vətənpərvərlik, torpağa, vətənə bağlılıq söz pəhləvanlığı, söz güləşdirməklə yox, konkret iş və əməllə ölçülür. Və bir də unutmayaq ki, ədalət həmişə zəfər çalır. Baxmayaraq ki, Mirabonun təbirincə desək, ədalət topaldır, ona görə də yavaş-yavaş yeriyir. Amma gedəcəyi yerə gec-tez çatır.

Bir də ki Naxçıvanda savab və xeyirxah iş görənlərə dua edəndə deyirlər: "Ömrün Duz dağına dönsün". Naxçıvanı, onun tarixini, mədəniyyətini tanıtmaq və təbliğ etmək elə Duzdağ ömrü yaşamaq və qazanmaqdır...

**Sahil TAHİRLİ**
**jurnalist**

## Milli Musiqi Gününə həsr olunmuş rəqslərdən ibarət konsert

***Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayının qarşısında Milli Musiqi Gününə həsr olunmuş rəqslərdən ibarət konsert təşkil edilib.***

Konsertdə Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının rəqs qrupları, "Şərur" Xalq Yallı Ansamblı, "Şərur qönçələri" Uşaq Yallı Ansamblının ifasında rəqslər tamaşaçılara təqdim edilib.





Rəqs kollektivlərinin ifasında "Üç gül", "Qaytağı", "Turacı", "Xançobanı", "Uzundərə", "Naz eləmə" və başqa rəqslər alqışlarla qarşılanıb.

Sonra meydan yallı ansambllarına verilib. Həmin kollektivlərin ifasında "Göyçəməni", "Tirməşal", "Söylə", "Köçəri", "Gopu", "Höynəri", "Qaleyi", "Tənzərə", "Xələfi" kimi qədim yallılarımız ifa edilib. "Şərur qönçələri" Uşaq Yallı Ansamblının çıxışı xüsusilə xoş ovqat yaradıb.

Qeyd edək ki, muxtar respublikamızda Milli Musiqi Günü ilə bağlı tədbir və konsertlər davam edir.

**Əli RZAYEV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 728